# Şəhidlər xiyabanında hazırlıq işləri görülür













Bu il sovet ordusunun Bakıda törətdiyi Qanlı 20 Yanvar faciəsinin 33-cü ildönümüdür. Canını Vətənin azadlığı və istiqlaliyyəti uğrunda qurban vermiş şəhidlərimizin anım günü ilə bağlı Şəhidlər xiyabanında hazırlıq işləri gedir.

Anım gününə bir neçə gün qalmasına baxmayaraq, məktəblilər, məktəbəqədər tərbiyə müəssisələrindən olan uşaqlar, şəhər sakinləri dəstə-dəstə Şəhidlər xiyabanına gələrək 20 Yanvar şəhidlərinin məzarı önünə qərənfillər düzür, şəhidlərimizin ruhuna dualar oxuyurlar. Şəhidlər xiyabanında möhtəşəm bir qələbəlik hökm sürür.

Eyni zamanda Şəhidlər xiyabanında Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və nəzarəti altında faciənin 33-cü ildönümü ilə bağlı hazırlıq, təmir və bərpa işləri gedir. Ənənəvi olaraq xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Öyrənirik ki, bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.

Şahidi olduq ki, Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri aparılıb, ağacların budaqları və bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənib, səkilər və bütün ərazi yuyulub. Xiyabandakı hər iki məşəldə hazırda profilaktik iş aparılır.

Müqəddəs ziyarətgaha çevrilmiş xiyabanın giriş hissəsindəki lövhənin ətrafı müxtəlif rəngli qərənfillərlə bəzədilib. Yazıların yaxşı oxunması üçün daha çox tünd qırmızı qərənfillərdən istifadə olunur.

Xiyabana ziyarətə gələn məktəblilərlə və sakinlərlə də görüşdük. Onlar burada aparılan hazırlıq işlərindən razı qaldıqlarını və şəhidlərimizin heç vaxt unudulmadıqlarını söylədilər.

Bakı Şəhər İcra Hakimiyyəti Aparatının Mətbuat xidmətindən bildirdilər ki, hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 18 yanvar.- S.6.